

## YORULMAZ TƏDQİQATÇI ƏZİZƏ HÜSEYN QIZI HACIYEVA

Azərbaycanda xanım dilçilər arasında zəhmətsevərliyi, qayğıkeşliyi ilə seçilən filologiya üzrə elmlər doktoru, professor Əzizə Hüseyn qızı Hacıyeva 1948-ci ildə Ağdam şəhərində anadan olmuşdur. O, 1964-cü ildə Ağdam şəhər 1 saylı məktəbində orta təhsil almış, 1969-cu ildə isə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunu bitirərək "ingilis dili müəllimi" ixtisası almışdır.

Ə.H.Hacıyevanın elmi fəaliyyətini iki dövrə bölmək olar.

Onun yaradıcılığının 1989-cu ildə "Uşaq nitqinin linqvistik təhlili" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmlər namizədi alimlik dərəcəsi alması ilə başlanmış birinci dövrü "Bağçada ingilis dili" (dərs vəsaiti, 1990), "Məktəbəqədər yaşlı uşaqların nitq inkişafı" (dərs vəsaiti, 1992), "Uşaqlara ingilis dili öyrədək" (dərs vəsaiti, 1995), "Məktəbəqədər yaşlı uşaqlar üçün ingilis dili" (dərs vəsaiti, 2003) kimi əsrlərlə daha çox pedaqoji təmayülü ilə əlamətdardır. 1994-cü ildə nəşr etdirdiyi "Uşaq nitqinin linqivistik təhlili" monoqrafiyası isə Ə.Hacıyevanın eyni zamanda öz sırf elmi fəaliyyətini də davam etdirdiyini göstərdi.

Fəaliyyətinin ikinci dövründə də yorulmaz tədqiqatçı bir-birinin ardınca proqramlar, dərs vəsaitləri tərtib etmiş, elmi tədqiqatlarını davam etdirmişdir. O, 2004-cü ildə ildə "İngilis dilinin leksikologiyası fənni üzrə proqram" və "English Phraseology" adlı dərslik (E.Nəcəfov və A.Cəfərov ilə birlikdə), "Lectures on English Lexicology" adlı dərs vəsaiti, 2010-cu ildə "Exercices on English Phraseology" adlı dərs vəsaiti, 2010-cu ildə "Müqayisəli leksikologiya fənni üzrə proqram", "Contrastive Lexicology" adlı dərslik və 2011-ci ildə "English Lexicology" adlı dərslik hazırlayıb nəşr etdirərək Azərbaycan pedoqoji elmini yeni əsərlərlə zənginləşdirmişdir.

2009-cu ildə Ə.H.Hacıyeva "Müxtəlifsistemli dillərdə somatik frazeoloji birləşmələr" mövzusunda dissertasiya müdafiə edərək elmlər doktoru dərəcəsi almaqla özünü kamil dilçi kimi bir daha təsdiq etdi.

Yaradıcılığının bu dövründə hazırladığı üç monoqrafiya – "İngilis və Azərbaycan dillərində somatik frazeologizmlərin struktur-semantik xüsusiyyətləri" (2004), "Müxtəlifsistemli dillərdə somatik frazeoloji birləşmələr" (2007) və "İngilis və Azərbaycan dillərində somatik frzeologiyanın əsasları" (2008) Ə.H.Hacıyevanı isdedadlı dilçi kimi elmi ictimaiyyətə daha yaxından tanıtdı.

Ə.Hacıyeva 2012-ci ilə qədər həm də Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Leksikoloji və leksikoqrafik araşdırmalar laboratoriyasının böyük elmi işçisi olmuşdur. Burada işlədiyi müddətdə də o, yaradıcılığını davam etdirərək "Azərbaycanca – ingiliscə alqış və qarğışların müxtəsər lüğəti" (2001), "Azərbaycanca – ingiliscə və ingilicə – Azərbaycanca somatik-frazeoloji birləşmələr lüğəti" (2005), "İngiliscə – Azərbaycanca frazeoloji lüğət" (2006) tərtib etmiş və bununla Azərbaycan leksikoqrafiyası tarixində həmin sahələr üzrə ilk lüğətlərə imza atmışdır.

Prof.Əzizə Hacıyevanın 100-ə yaxın əsəri Azərbaycanda və onun hüdudlarından kənarda – ABŞ, Türkiyə, Qazaxıstan, Rusiya və başqa ölkələrdə nəşr olunmuşdur.

Elmi yaradıcılıqla yanaşı, Əzizə Hacıyeva uzun illər İngilis dilinin leksikologiyası və Müqayisəli leksikologiya fənlərindən mühazirə və seminarlar aparmış, onlarla magistrant və dissertanta rəhbərlik etmiş, fəlsəfə doktoru və elmlər doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunan disertasiyaların müəlliflərinə rəsmi opponent olmuşdur.

Əzizə Hacıyeva tələbə və müəllim kollektivi arasında həmişə böyük hörmət və rəğbətlə qarşılanır. Azərbaycan Dillər Universitetinin kollektivi görkəmli pedaqoq, alim, professor Əzizə Hacıyevanı 70 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm can saglığı, uzun ömür və yeni yaradıcılıq uğurları arzulayır*.

*dos. Amil Cəfərov*

* P.S. Jurnal çapa hazırlanarkən prof.Ə.Hacıyevanın qəflətən dünyasını dəyişdiyi barədə üzücü bir xəbər aldıq. Onun vəfatı Azərbaycan elmi üçün ağır itki oldu. Lakin prof. Ə.Hacıyeva tanınmış alim, pedaqoq kimi onun tələbələrinin, həmkarlarının, yaxınlarının, Azərbaycan elmi ictimaiyyətinin xatirəsində əbədi yaşayacaqdır.